# Modern, güclü, yenilməz



## Çağdaş türk ordu modeli ölkəmiz üçün ən məqbul modeldir

*"Biz çox xoşbəxt ölkəyik ki, Türkiyə kimi müttəfiqimiz, qardaşımız var. Əlbəttə ki, Türkiyənin bizə göstərdiyi mənəvi dəstək, eyni zamanda, Türkiyə müdafiə sənayesinin məhsullarının bizdə olması bizi gücləndirir və bunu bütün dünya görür. Bu gün Türkiyə ordusu NATO-da ikinci ordudur. Heç kim türk ordusunun qabağında dura bilməz. Bunu hər kəs gördü, hər kəs anladı. Biz də Türkiyə ordusunun daha kiçik modelini qururuq və inşallah, bərabər quracağıq. Bizim də qarşımızda bölgədə heç kim dura bilməz. Bizim və Türkiyənin işi haqq işidir" - Prezident İlham Əliyev bu fikirləri "TRT Haber" telekanalına müsahibəsində deyib.*

Dövlət başçısının sözlərinə görə, Azərbaycan müharibə dövründə yeni təcrübə topladı: "Ordumuz demək olar ki, müharibələrdə iştirak etmirdi. Nəzəri baxımdan yanaşırdıq. Müharibə təcrübədir, bundan nəticələr çıxardıq". İlham Əliyev deyib ki, Türkiyə ilə Azərbaycan arasında qanunvericilik bazası var: "Elə sənədlər var ki, qarşılıqlı hərbi yardım məsələləri təsbit edilir. Azərbaycana təhdid yarananda bizə arxa duran qardaş Türkiyə olacaq".

**(davamı 3-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

# Modern, güclü, yenilməz



## Çağdaş türk ordu modeli ölkəmiz üçün ən məqbul modeldir

Prezident bildirib ki, müharibənin ilk günündən Türkiyə Azərbaycana dəstək oldu: "Qardaşım, sayın Ərdoğanın sözləri böyük siyasi dəstək oldu. Bu dünyaya siqnal oldu ki, "kənarda durun!". Türkiyənin müdafiə naziri Akar, xarici işlər naziri Çavuşoğlu, digər yüksək vəzifəli şəxslər birmənalı dəstək nümayiş etdirdilər. Türkiyə ilə Azərbaycan iki qardaş ölkə, bir-birinə ən yaxın ölkələrdir. Odur ki, çağdaş türk ordu modeli bizim üçün ən məqbul modeldir".

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu ilə bağlı başladığı işlər bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan, ardıcıl və sistemli islahatlar həyata keçirən ölkə başçısı, ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Ölkəmizin dinamik inkişafı silahlı qüvvələrin büdcəsinin artması, modernləşməsi, maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlər dövlətçiliyi və hərbi andı hər şeydən üstün tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam, peşəkar zabit və əsgər heyətinin döyüş ruhunu daha da yüksəltmişdir. Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilib. Beynəlxalq aləmə ədalətin, haqqın öz gücü hesabına bərpa olmasının mümkünlüyünü nümayiş etdirən xalqımız öz rəhbərinin illərlə yürütdüyü müdrik siyasətin məntiqi nəticəsini gördü. Azərbaycan xalqı öz liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Prezident İlham Əliyev "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" inamı ilə ordu quruculuğunun bütün parametrlərinin genişləndirilməsini, bu parametrlərin vəhdətini təmin etdi. Dövlət başçısı qətiyyətlə bildirirdi ki, hərbi potensialın gücləndirilməsi üçün, ordu quruculuğu üçün nə lazımdırsa, o da ediləcək. Bunun üçün ölkənin güclü iqtisadi imkanları var. Gündən-günə artan maliyyə resursları, ilk növbədə, ölkə qarşısında duran əsas vəzifələrin həllinə yönələcək və ordu quruculuğu bu məsələdə prioritetdir.

Ölkənin döyüş hazırlıqlı, modern silahlar və döyüş vasitələri ilə təchiz olunmuş ordusunun yaradılması, saxlanması böyük həcmdə vəsaitlər tələb etdiyi üçün bu hədəfə Azərbaycanın sürətli iqtisadi inkişafı sayəsində çatmaq mümkün oldu. Prezident İlham Əliyev ölkənin hərbi qüdrətinin artırılması siyasəti çərçivəsində silahlı qüvvələrin yeni silah və hərbi texnikaya olan tələbatının həm də yerli istehsal hesabına təmin edilməsi vəzifəsini müəyyən etdi. Bu məqsədlə, Azərbaycanın dövlət başçısı 2005-ci ilin dekabrında ölkənin Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında sərəncam verdi. Nazirlik tabeçiliyinə verilmiş müəssisələr əsasında ölkədə ilk dəfə hərbi sənaye qurdu və qısa müddət sonra artıq hərbi təyinatlı məhsullarını beynəlxalq silah sərgilərində nümayiş etdirməyə, silahlı qüvvələri bir çox güclü silah sistemləri, texnika ilə təchiz etməyə nail oldu. Hazırda Azərbaycanın müdafiə sənayesi Müdafiə Nazirliyinin bir neçə növdə silah-sursata tələbatını tam ödəmək gücündədir. Bu da Silahlı Qüvvələrin təchizatında xarici mənbələrdən asılılığı aradan qaldırmağa imkan verir. Hərbi sənaye sahəsindəki Türkiyə ilə işbirliyi tərəfdaşlığın önəmini və ölkələrimizin qüdrətini artıran çox mühüm amildir. 44 günlük Vətən müharibəsində PUA-ların böyük rol oynadığı sirr deyil. Müdafiə sənayesi sahəsində əlaqələrin inkişafı ölkələrin hərbi qüdrətini daha da artıracaq. Azərbaycan bu prosesdə istehsal mərkəzi kimi inkişaf edəcək.

Azərbaycanın hərbi gücünün artırılması siyasətinin mühüm istiqamətlərindən biri Hərbi Hava Qüvvələrinin yeni silah və texnika hesabına gücləndirilməsi olmuşdur. Hazırda Azərbaycan Cənubi Qafqazda ən güclü hava qüvvələrinə malik olan ölkədir və bu sahədə Ermənistandan dəfələrlə üstündür. Azərbaycanda güclü ordu quruculuğu sahəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə görülmüş işlərin nəticələrindən biri də ölkənin hava hücumundan kifayət qədər etibarlı təminatıdır. Azərbaycan hava qüvvələrini gücləndirməklə yanaşı, ölkənin hava məkanının potensial hücumlardan etibarlı müdafiəsinə nail olmaq üçün hərbi sahəyə ayrılan vəsaitin bir qismi yeni HHM sistemləri almağa sərf edildi. Azərbaycanın aldığı HHM sistemləri bu sahədə potensial rəqiblərə qarşı strateji üstünlüyü təmin etməyə imkan yaratdı. Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi bu illər ərzində Azərbaycanın hərbi qüdrətinin artırılması siyasəti çərçivəsində dövlət sərhədlərinin mühafizəsini gücləndirməyə xüsusi önəm verdi. Onun bu sahədə atdığı ilk addımlar Dövlət Sərhəd Xidmətinin strukturunun təkmilləşdirilməsi istiqamətində oldu. 2004-cü ilin yanvarında ölkə Prezidentinin fərmanı ilə Naxçıvan Sərhəd Dəstəsinin bazasında sərhəd diviziyası, 2005-ci ilin fevralında isə Sərhəd Gözətçi Gəmilər Dəstəsinin əsasında DSX-nin Sahil Mühafizəsi yaradıldı. Sahil Mühafizəsinin ayrıca struktur kimi yaradılması dəniz sərhədlərinin mühafizəsinə və Xəzərdə ölkəmizin maraqlarının daha yüksək səviyyədə təmin edilməsinə geniş imkanlar açdı. DSX-nin Xəzər dənizində müşahidə, axtarış və xilasetmə imkanları xeyli inkişaf etdirildi, sərhəd gözətçi gəmiləri müasir naviqasiya və aşkaretmə avadanlıqları ilə təchiz edildi, dəniz səthi üzərində nəzarətin təşkili üçün zəruri istiqamətlərdə radiolokasiya stansiyaları quraşdırıldı.

Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhvali-ruhiyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir. Müasir ordu quruculuğu prosesində Prezident İlham Əliyevin həyata keçirdiyi hər bir islahat, tətbiq etdiyi yenilik son dərəcə səmərəli olub. Bu yeniliklər kompleks yanaşma siyasətinin tərkib elementi kimi çıxış edib. Dövlətimizin başçısının ordu quruculuğu istiqamətində atdığı addımlar sırasında Silahlı Qüvvələrimizin şəxsi heyəti arasında mənəvi baxımdan sağlam ab-havanın yaradılması, yüksək mübarizə əzminin və əhvali-ruhiyənin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edib. Son illərdə həm hava, həm quru, həm də suda ən yüksək səviyyədə təşkil olunan birgə hərbi təlimlər ölkə başçısı İlham Əliyevin 44 günlük müharibə dövründə ordu quruculuğunda türk modelinə keçməklə bağlı verdiyi bəyanatın praktiki şəkildə həyata keçirildiyini göstərir. Digər tərəfdən, bu təlimlər son dövrdə təxribatlarını genişləndirən Ermənistana və bölgədə çirkin niyyətlərini gerçəkləşdirmək istəyənlərə qarşı Türkiyə və Azərbaycanın sarsılmaz birliyini nümayiş etdirir.

Azərbaycanın bu gün güclü hərbi kadr ehtiyatı, müasir silahları və hərbi texnikası var. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş ordu quruculuğu siyasəti Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Tez-tez hərbi hissələrə, cəbhə bölgələrinə səfərlər edən Ali Baş Komandan İlham Əliyevin yeni hərbi hissələrin açılışında iştirak etməsi, əsgər və zabitlərlə görüşərək onların problemləri ilə şəxsən tanış olması bu sahəyə diqqətin hansı səviyyədə olmasından xəbər verir. Dövlət başçısının sərəncamı ilə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin yaradılması, son illər keçirilən hərbi paradlar, ordunun beynəlxalq əlaqələrinin genişlənməsi, Azərbaycanın hərbi büdcəsinin Ermənistanın dövlət büdcəsindən çox olması və digər islahatlar ordumuzun yenilməz gücə sahib olduğunu sübut edir.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da artırılması istiqamətində görülən işlər davam edir. Müharibədən sonrakı dövrdə də ordu birliklərinin öz cavabdehlik sahələrində müstəqil fəaliyyət göstərə bilmələri üçün onların tərkibində komando hərbi hissələrinin yaradılmasına zərurət yarandı. 2021-ci il dekabrın 24-də Hadrut qəsəbəsinə səfəri çərçivəsində hərbi hissənin açılışında ölkə başçısı qeyd edib ki, Hadrutdakı bu hərbi hissədə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşir. Komando briqadasının yaradılmasını Azərbaycan üçün yenilik adlandıran dövlət başçısı onların sayının çox olacağının proqnozunu da verib. Onu da qeyd edək ki, hərbi ekspertlərin rəyinə görə, ordumuzun Türkiyə ordusu ilə sıx təmasda olması onlara məxsus və bizə uyğun olan islahatların aparılmasını mümkün edir. Bunlardan biri də komando hərbi hissəsinin yaradılmasıdır. Komando hərbi hissələri çevik, hazırlıqlı, peşəkar xüsusi təyinatlı hərbi bölmələrdir.

Şuşa Bəyannaməsi Azərbaycan ordusu ilə Türkiyə ordusunun bir millət, iki dövlət prinsipi ilə inkişaf etməsini, gələcəkdə bütün hüquqi sənədlərin bazasının qurulmasını nəzərə alaraq hər iki dövlətin bir-birinin maraqları baxımından çıxış etməsinə yol açıb. İki qardaş ölkənin orduları birgə fəaliyyət göstərir, birgə tapşırıqlar yerinə yetirir, hədəflərə çatmaq üçün birgə təlimlər keçirirlər. Bu ölkələrin hərbi modelləri bir-birinə yaxın olmalıdır ki, tapşırıqları yerinə yetirə bilsinlər. Silahlı Qüvvələrimizin Türkiyənin ordu modelinə uyğun qurulması uğurla yerinə yetirilir və bundan sonra da bu istiqamətdə lazımi işlər aparılacaq. Azərbaycan ordusu qarşıda qoyulan bütün tapşırıqları yerinə yetirmək gücündə olacaqdır.

**Mustafa KAMAL,**
**"Respublika".**